# İdarəetmə sahəsində aparılan islahatlar Azərbaycan xalqının rifahının yaxşılaşmasına istiqamətlənib

***Əminəm ki, hər bir rayonda, hər bir yerdə müasir idarəetmə qaydaları tətbiq olunarsa, bir çox problemlər aradan qaldırılacaq. Bax dövlətin siyasəti bundan ibarətdir. Mən hər zaman Azərbaycan dövlətinin siyasətini birmənalı şəkildə ifadə edirdim, bunu ictimaiyyətə təqdim edirdim. Mənim bir çox çıxışlarım ictimaiyyət qarşısında hesabat xarakterli çıxışlardır və eyni zamanda, bütün dövlət məmurlarına, o cümlədən sahibkarlara dediyim sözlər, hesab edirəm ki, əsas olmalıdır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



***Prezident İlham Əliyev Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayonlarına icra hakimiyyəti başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edən zamanı onlara böyük etimad göstərildiyini və bu etimadı doğruldacaqlarına əminliyini diqqətə çatdırıb.***

Ölkə rəhbəri, eyni zamanda, yeni vəzifəyə təyin edilən icra hakimiyyəti başçılarına daim insanlarla təmasda olmalarının, kəndlərə gedib camaatın qayğıları ilə yaşamalarının, problemləri ilə dərindən maraqlanmalarının, insanları narahat edən çətinlikləri onların dilindən eşitmələrinin və imkan daxilində sakinlərin çətinliklərini aradan qaldırmalarının zəruriliyini bildirib.

Dövlət başçısı daha sonra deyib: “Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz. Elə məsələlər var ki, onlar dövlət orqanları tərəfindən həll olunmalıdır. Bu barədə də aidiyyəti dövlət orqanlarına müraciət etməlisiniz – Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti dövlət qurumlarına ki, mövcud problemlər öz həllini tapsın. Əgər hər bir kəndin problemi həll olunarsa, demək olar ki, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq”.

***(ardı 3-cü səhifədə)***

# İdarəetmə sahəsində aparılan islahatlar Azərbaycan xalqının rifahının yaxşılaşmasına istiqamətlənib

*(əvvəli 1-ci səhifədə)*

Ölkə rəhbəri nitqində icra hakimiyyəti başçılarına fəaliyyətlərində sosial ədalətə əməl olunmasının vacibliyini xatırladaraq, sosial ədalətin, bütövlükdə isə ədalət prinsiplərinin insan həyatında taleyüklü məsələ olduğunu, bunun isə əsasən sağlam cəmiyyətdə hökm sürdüyünü deyib. Dövlət başçısı fikirlərinə əlavə olaraq, Azərbaycanda bu istiqamətdə uğurlar əldə edildiyini, insanlar arasında həmrəylik yarandığını və bütün bunların nəticəsində xalqın ölkədə gedən prosesləri dəstəklədiyini, xarici və daxili siyasəti dəyərləndirdiyini söyləyib.

Bəli, bu istiqamətdə strateji prioritetlərin uğurla reallaşdırılmasının məntiqi nəticəsidir ki, son 18 ildə xalqın rifah halı dinamik şəkildə yaxşılaşıb, ölkəmizin beynəlxalq nüfuzu güclənib, Azərbaycan hərbi və siyasi yollarla Ermənistanın işğalçılıq siyasətinə son qoyub, əzəli torpaqlarımız azad edilib, ərazi bütövlüyümüz, milli qürurumuz bərpa olunub.

Prezident İlham Əliyev çıxışında şəhid ailələrinə xüsusi diqqət yetirilməsinin önəmini bir daha vurğulayaraq, dövlət tərəfindən bu qayğının daim göstərildiyini, İkinci Qarabağ müharibəsindən əvvəl və Vətən savaşından sonra da belə həssas münasibətin davam etdirildiyini bildirib. Ölkə rəhbəri, həmçinin deyib: “Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir. Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir. Digər rayonlarda da dövlət xətti ilə bu iş görüləcək. Yəni, dövlət öz üzərinə düşən vəzifəni icra edir. O cümlədən, şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirilir. Əsas odur ki, yerlərdə də bu kateqoriyadan olan insanlara diqqət göstərilsin. Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı ilə maraqlansınlar, onların məşğulluğu ilə maraqlansınlar”.

Dövlətimizin başçısı şəhid ailələrinə, müharibə əlillərinə, veteranlarına belə həssas münasibətin təsadüfi olmadığını, onların, ordumuzun sayəsində düşmən üzərində tarixi qələbə əldə edilərək torpaqlarımızın işğaldan azad olunduğunu bildirib.

Bu məqamda qeyd etmək yerinə düşər ki, Qarabağ münaqişəsinin həll edilməsinə, torpaqlarımızın erməni faşizminin əsarətindən xilas olunmasına ölkə Prezidenti fəaliyyətində daim prioritet istiqamət kimi yanaşıb. Dövlətimizin başçısı istər işğal illərində, istərsə də postmünaqişə dövründə bu məsələnin ədalətli şəkildə reallaşmasına bütün gücünü, bilik və bacarığını yönəldib. Əlbəttə, haqq mübarizəsində, qələbənin qazanılmasında xalq–Prezident birliyi qarşıya qoyulan müqəddəs vəzifənin gerçəkləşdirilməsini şərtləndirib. Təbii ki, Prezident İlham Əliyevin ordu quruculuğunun sürətlə aparılmasını, Silahlı Qüvvələrimizin beynəlxalq standartlara uyğun qurulmasını, bununla bərabər, gənc nəslin vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunmasını, respublikamızın güclənməsi naminə davamlı iqtisadi islahatların reallaşdırılmasını diqqətdə saxlaması xalqımızı qələbəyə, uğura addım-addım yaxınlaşdırıb və nəhayət, 30 illik mənasız danışıqlar başa çatıb. Haqq-ədalət, beynəlxalq hüquq, BMT-nin məlum qətnamələri hərbi güc yolu ilə həllini tapıb. Azərbaycan bununla da bütün dünyaya böyük və güclü xalq olduğunu nümayiş etdirib, heç vaxt işğalla barışmaq fikrinə düşmədiyini sübuta yetirib.

Şübhəsiz ki, dövlət başçısın vurğuladığı kimi, İkinci Qarabağ müharibəsində əldə edilən ədalətli qələbəyə görə, xalqımız şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcludur. Əlbəttə, dövlət qətiyyət göstərdi, xalq öz iradəsini ortaya qoydu, heç nəyə baxmadan, heç kimdən çəkinmədən, “öldü var, döndü yoxdur” deyərək torpaqlarımız azad olundu: “Bu, dövlət siyasətidir və dövlətin gücüdür, vətəndaşlarımızın həmrəyliyidir. Amma onu da heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub. Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir”.

Yeri gəlmişkən, şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına həssas münasibət Vətən müharibəsindən əvvəl və sonra diqqət mərkəzində saxlanılıb. Məsələn, keçən il yanvarın 1-dən şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə və Milli qəhrəmanlara verilən Prezident təqaüdünün məbləği artırılıb, Vətən Müharibəsi Qəhrəmanı təqaüdü təsis edilib.

Xüsusi kateqoriyadan olan şəxslərin maddi vəziyyəti bu gün də diqqət mərkəzində saxlanılır. Şəhid ailəsi üzvləri və müharibə əlillərinin mənzil-məişət şəraiti yaxşılaşdırılır.

Ölkə Prezidentinin tapşırığına əsasən mənzil təminatı 5 dəfə artırılıb.



Bununla bağlı 2021–2025-ci ilə dair dövlət proqramı da təsdiq olunub. Vətən müharibəsindən sonra 3 min 600, ümumilikdə isə ötən dövr ərzində 12 min 500-dən çox mənzil və fərdi ev şəhid ailəsi və müharibə əlillərinə verilib. Bu il üçün 1500-dən çox mənzil və fərdi evlərin bu müqabilindən olan insanlara verilməsi nəzərdə tutulub. Müharibə əlillərinin avtomobillə təminatı tədbirləri çərçivəsində son 4 ildə 1500-dən çox, ümumilikdə isə ötən dövr ərzində 7400 müharibə əlilinə avtomobil verilib.

Dövlətimizin başçısı qəbul zamanı icra hakimiyyəti başçılarına rayonların inkişafı ilə bağlı da tövsiyələrini verib, onların təşəbbüskar olmalarının zəruriliyini xatırladıb. Eyni zamanda, bəzi hallarda yerli icra orqanlarının bu məsələdə bir qədər tənbəllik etdiklərini də təəssüflə vurğulayıb. Ölkə rəhbəri çıxışında, həmçinin rayon icra hakimiyyəti başçılarının fəaliyyətlərində hansısa bir təşəbbüsün gerçəkləşməsində gözləmə mövqeyi tutduqlarını, belə vaxtlarda dövlət, yaxud iş adamı tərəfindən layihələrin icrasına kömək göstəriləcəyinə ümid bəslənildiyini diqqətə çatdırıb. “Belə olan halda, bəzi hallarda sahibkarlar qarşısında müəyyən qanunsuz, əsassız tələblər irəli sürülür. Siz özünüz sahibkarları rayonlarınıza cəlb etməlisiniz, həm yerli sahibkarları, həm də xarici sahibkarları. Xüsusilə nəzərə alsaq ki, Göygöl, Masallı və Lerik rayonlarının turizm potensialı çox zəngindir və bu rayonların füsunkar təbiəti bizim böyük sərvətimizdir – meşələr, dağlar, bulaqlar, çaylar, şəlalələr. Yəni, bu rayonları, sözün əsl mənasında, turizm mərkəzinə çevirmək hesab edirəm ki, əsas vəzifələrdən biridir”, – deyə ölkə rəhbəri bildirib.

Prezident İlham Əliyevin yeni icra hakimiyyəti başçılarına verdiyi tövsiyələrdən biri də onların rəhbərlik etdikləri rayonlarda turizmin inkişafı ilə bağlı olub. Ölkə rəhbəri son illərdə bu sahədə xeyli iş görüldüyünü, Göygöl, Lerik və Masallıda olarkən bu məsələ ilə maraqlandığını, tapşırıqlarını verdiyini, artıq bu istiqamətdə müəyyən layihələrin həyata keçirildiyini, müasir istirahət zonalarının, otel komplekslərinin qurulduğunu bildirib. Dövlət başçısı bir neçə il bundan əvvələ qədər müəyyən səbəblərə görə, Göygölün ictimaiyyət üçün bağlı olduğunu xatırladaraq, bu məkanın ekoloji vəziyyəti, ekosistemi qorunmaq şərtilə açıldığını, çox böyük maraq doğuran turizm ərazisinə çevrildiyini vurğulayıb. “Eyni zamanda, nəzərə alsaq ki, bu gün Göygöl rayonundan Kəlbəcər rayonuna yol açılır, tunel çəkilir, bu rayonun Kəlbəcər-Laçın zonasının inkişafı ilə bağlı xüsusi rolu vardır”, – deyə dövlət başçısı bildirirb.

Ölkə rəhbəri Lerik və Masallı rayonlarının da zəngin turizm potensialı olduğunu, son illərdə bu yerlərdə mövcud sahənin inkişafı istiqamətində müəyyən layihələrin reallaşdırıldığını, bundan sonra da işlərin davam etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev çıxışında hər üç rayonda kənd təsərrüfatının inkişafı üçün əlverişli şərait olduğunu qeyd edərək, müasir tələblərə uyğun kənd təsərrüfatının yaradılmasının prioritetliyini xatırladıb. Eyni zamanda, müasir aqrotexniki tədbirlərin görülməsi, tətbiq edilməsi şərtilə heyvandarlıq və bitkiçiliyin rayonların xüsusiyyətlərinə görə inkişaf etdirilməsinin əhəmiyyətini söyləyib. Ölkə rəhbəri bu zaman əsas məsələ kimi torpaqlardan səmərəli istifadə edilməsinin diqqətdə saxlanılmasını vurğulayaraq, deyib: “Əfsuslar olsun ki, əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanmışdır, qanunsuz zəbt edilmişdir. Kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdir. Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var. Vəzifəli şəxslər yerli icra orqanlarının nümayəndələrinə göstəriş verirdilər ki, o torpağı mənə ver, bu torpağı mənə ver. Beləliklə də torpaq fondu azalırdı və torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət almışdır”.

Prezident İlham Əliyev bu halın təkcə regionlarda deyil, Bakı şəhərində, Abşeron yarımadasında da ciddi nəzərə çarpdığını qeyd edib: “Yəqin siz də bilirsiniz, bu yaxınlarda ictimaiyyətin bir qrup nümayəndəsi mənə müraciət etmişdir ki, böyük tarixə malik olan Buzovna qayaları bəzi insanlar tərəfindən zəbt edilmişdir. Mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısına dərhal göstəriş verdim ki, bu məsələ araşdırılsın, mənə məruzə edilsin və mənə məruzə edildi. Çox böyük pozuntular aşkarlandı, çox böyük pozuntular. Bu qanunsuz əməllərə kimlər əl atıb? Dövlət məmurları və bəzi dırnaqarası sahibkarlar! Onların da siyahısı var. Bu, tarixə qarşı, bizim təbiətimizə qarşı cinayətdir. Bu qayalar Bakının rəmzidir, bu qayalar əsrlər boyu sahilimizin gözəlliyini əks etdirirdi. Bu qayalara insanlar yaxınlaşırdı, orada filmlər çəkilirdi. Kimsə bunu zəbt edir, onları sındırır, özləri üçün villa tikir”.

Prezident İlham Əliyev çıxışında bu hallara qarşı çox ciddi mübarizə aparıldığını qeyd edərək, belə işlərə rəvac verən və bəzi dövlət məmurlarını, yerli icra orqanlarını bu qanunsuz işlərə təhrik edən şəxslərin vəzifədən uzaqlaşdırıldığını bildirib. Həmçinin bundan sonra da bütün ölkə üzrə – Abşeron yarımadasında, sahilboyu ərazilərdə, rayonlarda torpaqların zəbt edilməsi prosesinin araşdırılacağını və qanunsuz əməllərə son qoyulacağını, ekoloji sistemin ciddi şəkildə qorunacağını, bu əraziləri məhsul yetişdirmək üçün fermerlərin, kəndlilərin istifadəsinə veriləcəyini deyib.

Prezident İlham Əliyev çıxışında bundan sonra inşaatda şəhərsalma normalarının pozulmasının qarşısının ciddi şəkildə alınması və mövcud problemlərin dövlət orqanlarının diqqətinə yönəldilməsi üçün ictimai nəzarətin daha da gücləndirilməsi məsələləri ilə bağlı da fikirlərini də diqqətə çatdırıb.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*